Yol aktivlərinin idarə olunması (YAİ)

Azərbaycan

6-9 sentyabr 2022

# YAİ siyasətinin hazırlanması

Dr İan Qrinvud

BE(Civil), PhD(Eng), FEngNZ(Civil), CPEng(NZ)

ian@gaic.nz

# YAİ siyasəti nədir?

- YAİ öhdəliklərinin rəsmiləşməsi
- Adətən ISO55000 sertifikatına (və ya oxşarına) nail olmaq niyyəti ilə bağlı olur

# Nümunələr

- Adelaida şəhəri, Avstraliya
  https://d31atr86jnqrq2.cloudfront.net/docs/policy-asset-management.pdf?mtime=20200124090819

- Tasmaniya ştatı, Avstraliya
  https://www.transport.tas.gov.au/__data/assets/pdf_file/0004/114439/Road_Management_Infrastructure_Asset_Management_Policy.pdf

# YAİ siyasəti nədir?

- Siyasətin məqsədi (Adelaida şəhəri, Avstraliya):

*“Bu siyasət Adelaida şəhərinin öz infrastruktur aktivlərini cari və gələcək icmaların xeyrinə davamlı şəkildə idarə etməyə yanaşmasını əks etdirir. Bu, aktivlərin həyat dövrü üçün təşkilat daxilində aktivlərin idarə edilməsi proseslərinə ardıcıl yanaşmanın işlənib hazırlanmasına və daxil edilməsinə imkan verəcək.*

*Bu yanaşma şəhərimizi istiqamətləndirən fəlsəfənin qalmasını təmin edir - biz əvvəldən düşünülmüş və məqsədyönlü şəkildə insanları nəzərə alan bir şəhərik - və biz insanların rifahını və həyat keyfiyyətini gördüyümüz işlərin əsasına qoymağa davam edirik."*

# Səciyyəvi siyasət sənədinin tərkibi

- Qısa sənəddir - bir neçə, hətta bir səhifəlik
- Əhatə olunan aktivlərin həcmi
- YAİ tətbiqi ilə bağlı öhdəçilik
  - Ola bilsin ki, ISO55000-ə nail olmaq öhdəliyi
- İstismar dövrü xərc prinsipləri ilə bağlı öhdəçilik
- Xidmət səviyyələri bazası
- Risklərin idarə olunması
- İstifadəçi fokuslu

- Ən yüksək səlahiyyətli orqan tərəfindən təsdiqlənir - məs. nazir, katib və s. kimi

# Əlaqəli sənədlər

- Adelaida şəhəri nümunəsi



# Vəzifələri müəyyənləşdirir - Adelaida nümunəsi

**Məsuliyyətlər**

- **Şəhər Meri və Seçilmişlər Heyəti** siyasət və aktivlərin idarə edilməsi prinsiplərini qəbul edir və aktivlərin idarə edilməsi planlarında qeyd olunduğu kimi aktivlərin idarə edilməsi tələblərinin qərar qəbulu zamanı müvafiq qaydada nəzərə alınmasını və şuranın planlaşdırılması və maliyyə idarəçiliyində əməl edilməsini təmin edir.
- **Baş İcraçı Direktor və İcraçı İdarəetmə Qrupu**, resursların bölüşdürülməsinə və təşkilat daxilində aktivlərin idarə edilməsi təcrübəsinin etibarlı tətbiqinə, eləcə də bütün aktivlərin idarə edilməsi fəaliyyətlərinin Şəhər Şurası Strateji Planının məqsədlərinə, inteqrasiya olunmuş biznes planına və büdcə prosesinə və uzunmüddətli maliyyə planlara uyğun olmasını təmin etmək üçün məsuliyyət daşıyır.
- **İnfrastruktur üzrə Direktor müavini** siyasət, strategiya və planların işlənib hazırlanması da daxil olmaqla, Şuranın aktivlərin idarə edilməsi çərçivəsinin həyata keçirilməsinə rəhbərlik və istiqamət vermək. Təşkilat daxilində bu siyasətdə nəzərdə tutulmuş prinsiplərin monitorinqi və həyata keçirilməsi üçün əsas məsuliyyət daşıyır.
- **İcma Ərziləri üzrə Direktor müavini** gündəlik texniki qulluq və əməliyyat tələblərinin bu siyasətdə yer alan prinsiplərə uyğun olaraq planlaşdırılmasını və həyata keçirilməsini təmin edir.
- **Maliyyə və Satınalmalar üzrə Direktor Müavini** qəbul edilmiş aktivlərin idarə edilməsi planlarında maliyyə proqnozlarının uzunmüddətli maliyyə planlaşdırmasında əks olunmasını, cari və gələcək aktivlərinə davamlı xidməti qulluq, əməliyyatlar, yenilənmə və təkmilləşdirilmə xərclərini əhatə etməsini təmin edir.
- **Aktivlər üzrə menecerlər və işçi heyəti** Aktivlərin idarə edilməsi siyasətində və strategiyasında qeyd olunan prinsip və məqsədlərin aktivlərin idarə edilməsi planlarının hazırlanmasına rəhbərlik etməsini təmin edin. Yeni və təkmilləşdirilmiş aktivlər üçün, aktivlərin yenilənməsi tələblərini, xidmət səviyyələrini, texniki xidmət standartlarını və həyat dövrü xərclərini müəyyən etmək daxil olmaqla, aktivlərin idarə edilməsi planlarını hazırlayır, yeniləyir və həyata keçirir.

# Suallar

- YAİ öhdəçilikləri ilə bağlı siyasət və ya oxşarını istifadə edirsinizmi?
- Əgər varsa, bunu kim təsdiqləyir?
- YAİ həyata keçirilməsi üçün effekt verirmi?
- Belə bir sənədin hazırlanması üçün köməyə ehtiyacınız varmı?

# Suallar

Dr İan Qrinvud
Qrinvud İnfrastruktur Məsləhətçiləri Assosasiyasiyası
ian@gaic.nz